# GƏLİN GÜLƏK!..

ESSE

Zaman ömrümüzü-günümüzü əlimizdən alan və heç vaxt dəyişməyən bu nəsnə atını dörd nala çapır. Ha yalvarır-yaxarır, əlləşib-vuruşuruq ki, arxadan ona çataq, mümkün olmur.

Neçə əsrdir ki, materialist və idealist beynəlxalq simpoziumlarda, elmi yığıncaqlarda qarşı-qarşıyadırlar, hətta bəzən bir-birlərinə əl verib görüşmür, xoş üz göstərmirlər. Sözün açığı qərblilərin fəxri budu: materiya birincidir, şüur ikinci. Şərq ələlxüsus müsəlman dünyası bunun əksini önə çəkir, yeri düşdü-düşmədi qərbi top atəşinə tutur. Bəs bu çəkişmələr, qarşılaşmalar haracan davam edəcək?

Şüurun varlığını Ulu Yaradanın böyük qüdrət sahibi olduğunu heç kim danmır. Lakin müqəddəs səma kitablarında göstərilmir ki, Xaliqin xəlq etdiyi bütün yaranmışların əşrəfi sayılan insan əlini-əlinin üstünə qoyub işləməsin, zəhmət çəkməsin onun ruzisi göylərdən "gələcək". Yox, belə məsləhət deyil ki, özünün ailənin dolanışığı, gün-güzəranı üçün gecə-gündüz əlini göylərə qaldır, işləmə...

Dostum "Qurani-Kərim"i əzbər bilən, heç kimi Allah xofu ilə qorxuzmayan Molla Hüseynin moizəsi yadıma düşür. Qoy onu dilə gətirim.

Ramazan ayının onbirinci günü Həzrəti Mühəmməd (s.ə.s) məscidə namaz qılmağa gələnlərdən soruşur: İsti havalar çətinlik törətmir ki?.. Kim xəstədirsə, özünə əziyyət verməsin...

Bir mömin şəxs, təşəxxüs göstərib, səsinin tonunu qaldırır.

- Ya Peyğəmbər, onbir gündür mən uzaqlarda qalıram, ruzimi Allah yetirir, hər axşam birinin qapısını açıram heç kim məndən bir tikə çörəyini qızırğanmır... Məlum olur ki, o şəxs meşədən odun gətirib bazarda satar və dörd nəfərlik ailəsini dolandırarmış. Peyğənbər ona deyir.

- Bəradərim, sənin ibadətinin günahı savabından artıqdır. Qayıt öz işinə, peşəni davam elətdir, əhli-əyalın qonum-qonşunun ümidinə qalmasın.

Mühəmməd peyğəmbər bu sözlərində çox haqlıdır. 30-40 il bundan qabaq yol kənarlarında belə şüarlar dəmir lövhəyə yazılar, gəlib-gedənlərin diqqətini cəlb edərdi. "İş insanın cövhəridir", "İşləməyən dişləməz" və s.

Bəli, istəkli oxucum insan bu uca varlıq ağlı söz kəsəndən işıqlı dünyanı tərk

edənə kimi zəhmətkeş olmalı, "Allahdan buyuruq ağzıma quyruq" düşüncəsiylə yaşamamalıdır. Yoxsa həyatın mənası, onun şirinliyi, gözəlliyi olmaz!

***

Sözümün, söhbətimin bu məqamında inkişafın özəyini təşkil edən təkamül və dialektikanı tamamilə fərqli baxışlarla düşünən Rafiq Tağının səsi gəlir qulağıma. Özünü görmürəm səsini eşidirəm. Ürəyimin başından qara qanlar axır. Yoxdu həyatda, yoxdu, yoxdu... Doğulduğu, uşaqlığını qoyub getdiyi Masallıya gedərkən Biləsuvarda bir-iki saatlıq dayanar, mənimlə görüşərdi. Çörək kəsər, söhbətləşərdik. Dildən bir az acı idi, həyat həqiqətlərini necə var eləcə söylədiyinə, yazdığına görə, tez-tez ağzıgöyçəklərin qınağına tuş gələrdi.

O, ədəbiyyata, söz dünyasına öz nəfəsini gətirdiyinə görə nəhəng qələm adamı kimi tanınırdı, sevilirdi. Dilinin bəlasına düşdü. Daha doğrusu "Alma" qəzetində dərc etdirdiyi "Avropa və biz" essesi rezonans doğurdu, əsl həqiqəti əks etdirən bu esse onun həyatına son qoydu. Nə yazmışdı o ? İkicə cümləylə belə bir fikir ifadə etmişdi ki, istibdaddan, haqsızlıqdan baş götürüb İrandan qaçan məşrütəçilər, azad fikirli insanlar niyə başqa müsəlman ölkələrinə deyil qocalmış-qartımış Avropaya, onun törəməsi olan Amerikaya üz tuturlar? Bax bu ikicə cümləyə görə İranın fars rejimi, "Ettelaat" təşkilatı ona ateist damğası vurdu və gecə yarısı evinin qabağında möhkəmcə döydürdü, saldı xəstəxanaya o dünyalıq elətdirdi onu.

Dostum Rafiq Tapdığın ölümü hələ də sirdi, müəmmadı.

İntibah dövründən üzü bəri neçə yüz ildir ki, materiyanın, yoxsa şüurun öndə olması haqqında Qərb-Şərq konteksində dartışmalar, çəkişmələr səngimək bilmir. Və yəqinki, sağlığında bəxti gətirib İngilis alimi, "Növbələrin mənşəyi" kimi nəzəri ideyanın müəllifi Çarlis Darvin. O, dünyaya bəyan edib ki, insan meymundan əmələ gəlib. Özü də təkamül yolu ilə! Hə, hə burda, həqiqətən bəxti, taleyi üzünə gülüb onun. Yoxsa, bu ideyasına görə Ç.Darvin, Rafiq Tağı kimi ya qanına qəltan edilər, ya da saqqalına od vurub diri-diri yandırarlar onu.

***

Qışın ilk günləri, böyük çillənin təzəcə girdiyi vaxt idi. Gecədən xeyli keçmiş Türkiyənin hansısa telekanalında bir dəfə çox unikal bir sujet seyr etdim. Gördüklərimi dil gətirirəm.

Afrikanın cəngəllikləri. Xəzan fəslidir. Şam, palıd, qoz, küknar...ağacları keçəlləşir, yaşıl libasını soyunur. Yarpaq tökümü başlanıb... Təkcə sürahi boylu, göz oxşayan sərf ağacı payıza əl vermir. Bir yarpağı belə saralıb-solmayıb. Gözəlliyi ilə hind qızlarını xatırladan bu ağacın başı göylərdədir, ayağı yerdə...Tamaşasına dursan, ruhun dincələr, dərindən köks ötürərsən.

Bu vaxt minik maşını gəlir bura. Müasir dəblə geyinən 3 nəfər öz aralarında danışa-danışa, gülə-gülə maşından düşür, başlayırlar özləri üçün kef məclisi təşkil etməyə. Əvvəlcə quru budaqları toplayır, ocaq qalayır, gətirdikləri quzu ətindən kabab çəkir, süfrə düzəldir, sonra yeyib-içirlər.

Bu mənzərəni sərf ağacının yuxarı, iri budağında əyləşən şimpanze meymunu seyr edir. O, narahatdır, tez-tez yerini dəyişir, asta-asta hərəkətdədir. Cavanların heç xəyalına da gəlmir ki, yuxarıdan kimsə onları izləyir, hərəkətlərinə göz qoyur... Şimpanze görəsən nə fikirləşir? Bəlkə acdır, mədəsi fit çalır? Ola bilər!

Nəhayət, cavanların eyş-işrət məclisi başa çatır, yığışıb gedirlər. Və əsl həngamə, heç dilə gətiriləsi olmayan qəribə hərəkət. Meymun sanki onların çıxıb getməyini intizarla, səbirsizliklə gözləyirmiş. Çox cəld, əlləri ilə budaqdan-budağa hoppana-hoppana düşür ağacdan. Püfləyir ocağı. Ocaq alovlanır. Əlini əlinə vurur, sevinir. Sonra quru budaqdan şiş düzəldir, tələsə-tələsə sümüklərin üstündəki ətləri qoparır, şiş çəkir. Həəə, budur, kabab hazır. Sonra çörək tikələrini, qırıntıları bir yerə toplayır, boş butulkaları yuxarı qaldırıb diqqətlə baxır. Bir butulkada yalan olmasın 250-300 qram içki... başlayır iştahla, bir az da acgözlüklə yeyib-içməyə və sonda ora-bura atılan siqaret kötüklərini də bir yerə yığır, odlayır. Papiros çəkir, tüstünü havaya pilləyir.

Arxası üstə uzanıb. Gözləri axır, hiss edilir ki, məsti-xumardır...Gah sağa, gah da sola dirsəklənir...Paçasının arasına baxır. Cavan kişi imiş ki...

***

2016-cı il meymun ilidir. Qışı yola saldıq. Baharın gözəlliyindən doymuruq. Gül-gülü çağırır, çiçək çiçəyi. İlin əvvəlində məşhur gülüş ustası Arif Quliyev dedi: "Meymunu yada salın, gülün..." Doğru deyir o unutmayaq ki, gülüş ömrü uzadır, insanı cavan saxlayır.

Bir zamanlar radio və televiziyada tez-tez gözündən, Azərbaycan və Hind mahnılarının məşhur ifaçısı, indi isə KİV-lərdə şou-biznes aləmində, ya da düşməyən populyar müğənni, xalq artisti Elmira Rəhimova necə də gözəl oxuyurdu:

**Yazıq o şəxsə ki, qaraqabaqdı,**
**Nə gözəl yaraşır insana gülmək!**

Gəlin gülək, lap uğunub gedək!

**Əlibaba Rəhimov,**
**Biləsuvar rayonu**